DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (379) / MAY 2023-CÜ İL



Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

...Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq.

Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan demokratik ölkədir. Azərbaycanda insanlar azad yaşayırlar. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər. Bu unikal ab-hava bu gün ölkəmizi gücləndirir. Bax, bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir. Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, "Qurani-Kərim" yandırılır və buna da biganə yanaşırlar. Yəni, mən bu sözləri söyləməklə bir daha demək istəyirəm ki, bizdə mövcud olan ab-hava unikaldır. Bu, bizim həyat tərzimizdir və eyni zamanda, bu, bizim siyasətimizdir, bu, bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik.

**Prezident İlham Əliyev**
Şuşa. 10 may 2023-cü il

**"HEYDƏR ƏLİYEV 100: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ"**



Səh. 3

**DÖVLƏT KOMİTƏSİ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA SƏFƏR EDİB**



Səh. 6

**TƏYİNAT ALAN DİN XADİMLƏRİ İLƏ DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ KEÇİRİLİB**



Səh. 8

**MALAYZİYA TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNDİRİLİR**



Səh. 11

# ŞUŞADA YUXARI GÖVHƏR AĞA MƏSCİDİ ƏSASLI YENİDƏNQURMA VƏ BƏRPADAN SONRA AÇILIB



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak ediblər.

Əvvəlcə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məsciddə görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, Yuxarı Gövhər Ağa məscidində 2021-ci ilin sonlarından aparılan bərpa işləri başa çatıb. Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb.

Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.

Məlumat verilib ki, bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılıb. Hazırda mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentləri və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri, həmçinin məscidin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği – XIX əsrin ensiklopedik alimi" sərgisi ilə tanış olublar.

Qeyd edək ki, Qarabağ ədəbi mühitinin görkəmli nümayəndələrindən biri - istedadlı şair, rəssam, musiqişünas, filosof, pedaqoq Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərgidə onun Milli Azərbaycan Tarixi Muzeyində qorunan və XVIII–XIX əsrlərə məxsus Azərbaycan silah sənətini özündə təcəssüm etdirən şəxsi silah kolleksiyası, şairin müəllifi olduğu, illüstrasiya çəkdiyi və Şuşada öz nəşriyyatında çap etdiyi kitablar, onun musiqi, kimya, astronomiya sahəsində fəaliyyətinin əks olunduğu eksponatlar nümayiş etdirilir. Sərgidə astronomiya elmi ilə maraqlanan Mir Möhsün Nəvvabın bu sahə üzrə çəkdiyi cədvəllər, səma cisimlərinin yerləşməsi və Günəş tutulmaları ilə bağlı sxemləri də nümayiş olunur.

# ŞUŞADA HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN APARILAN BƏRPA İŞLƏRİNDƏN SONRA SAATLI MƏSCİDİNİN AÇILIŞI OLUB

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb.

İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb.



Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib.

Aparılan analizlər nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyən olunub və minarə ona uyğun bərpa edilib, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri məscidin həyətində ağac əkiblər.

# "HEYDƏR ƏLİYEV 100: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ"

Mayın 2-də Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev 100: azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev və azərbaycançılıq" filmi nümayiş olunub.



**Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** konfransı giriş sözü ilə açaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsindəki xidmətlərindən, o cümlədən milli-mənəvi dəyərlərimizin dirçəldilməsinə, tolerant və multikultural ənənələrin inkişafına verdiyi töhfələrdən danışıb. Müstəqilliyimizin bərpasından sonra xalqın yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə sağlam cəmiyyətin formalaşmasına təsir göstərmək, onun tarixi yaddaşını, milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürmək kimi tarixi vəzifəni üzərinə götürən Ümummilli Lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi missiyadan geniş şəkildə bəhs edib.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov** bildirib ki, ölkəmizin bugünkü mütərəqqi vəziyyətə gəlib çıxmasına Ümummilli Lider Heydər Əliyevin göstərişi və rəhbərliyi ilə iqtisadi, siyasi sahədə islahatların həyata keçirilməsi, neft strategiyasının hazırlanaraq tətbiq edilməsi, hüquqi sistemin formalaşdırılması sayəsində nail olunmuşdur. Xalqı birləşdirən dəyərlər sisteminin qorunub saxlanılması, Azərbaycan müstəqilliyinin və dövlətçilik ənənələrinin davam etdirilməsi istiqamətində dahi şəxsiyyətin xidmətlərinə toxunan R.Həsənov vurğulayıb ki, bu gün ölkəmizdə mövcud olan multikulturalizmin siyasi banisi məhz Ulu Öndərdir. O, ölkədə yaşayan xalqların, dini konfessiyaların nümayəndələri arasında fərq qoymayaraq, bütün mədəniyyətləri, dinləri xalqın sərvəti hesab edirdi. BBMM-nin icraçı direktoru onu da bildirib ki, bizə məxsus olmayan, Azərbaycan xalqının birliyini pozan yad fikirlərin millətə nüfuz etməsinin Heydər Əliyevin fəaliyyəti nəticəsində qarşısı alınmışdır.

**Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Rəşad Əliyarlı** türk dünyasının və dövrünün ən görkəmli siyasi xadimi olan Heydər Əliyevin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasındakı xüsusi xidmətləri, fədakar fəaliyyəti haqqında tarixi məqamları diqqətə çatdırıb. Həmçinin milli dəyərlərə söykənən, vəhdəti, birliyi, həmrəyliyi özündə ehtiva edən, habelə vicdan və dini etiqad azadlığını təmin edən dövlət-din münasibətlərinin tənzimlənməsində və möhkəmlənməsində Ümummilli Liderin böyük xidmətlərini qeyd edib.

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid** Heydər Əliyevin milli-mənəvi dəyərlərin mühafizəsi, ana dilimizin qorunub inkişaf etdirilməsi istiqamətində gördüyü işlərdən bəhs edib. Bildirib ki, Ulu Öndər Azərbaycan mətbuatına münasibətdə daim balansı qoruyub saxlamağı bacarıb, jurnalistikanın tərəqqisi, söz və mətbuat azadlığının müdafiəsi naminə misilsiz tarixi xidmətlər göstərib. Heydər Əliyevin milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edən azərbaycançılıq ideologiyasını irəli sürməsinin tarixi nəticələrindən də bəhs edən Şura sədri bu ideyanın ölkəmizdə və dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa sövq etdiyini dilə gətirib.

**Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev** müasir Azərbaycanın qurucusu və memarı olan Ulu Öndərin multikultural və tolerant dəyərlərin təbliğ və təşviq edilməsindəki roluna toxunub. Bununla ölkəmizdə bütün dinlərə aid olan dini ibadətgahların yenidən qurulması, əsaslı təmiri, yenilərinin tikintisi istiqamətində mühüm addımlar atıldığını, Azərbaycanın tolerant ölkə kimi dünyada bir nümunəyə çevrildiyini deyib. M.Yevdayev Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda müxtəlif dinlərə mənsub olan millətlərin mehriban şəraitdə yaşadığını və Azərbaycan vətəndaşları kimi dövlətin bütün diqqət və qayğılarından bəhrələndiyini qeyd edib.

**Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvü Şahlar Əsgərov** Ümummilli Liderin dövlətçiliyimizin və milli dəyərlərimizin qorunmasındakı mühüm xidmətləri, siyasi fəaliyyəti, elm, təhsil, mədəniyyət sahələrində həyata keçirdiyi islahatlar barədə tədbir iştirakçılarını məlumatlandırıb. Bildirib ki, Ulu Öndər insanları müəyyən bir ideya arxasınca apararaq milli birliyə nail olmuş, özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmış, xalqımızın taleyində ən vacib rolu oynamış müstəsna şəxsiyyət olmuşdur.

**DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə** Heydər Əliyevin fədakar fəaliyyəti sayəsində müstəqilliyimizin ilk illərində cəmiyyətin bütün sahələrində əldə olunan nailiyyətlərdən danışıb. Onun ideyalarının Prezident İlham Əliyevin rəhbərliyi ilə gənc nəsil tərəfindən uğurla davam etdirildiyini, Ulu Öndərin azərbaycançılıq ideyasının özünün yenilməz gücünü Vətən müharibəsində bir daha nümayiş etdirdiyini vurğulayıb.

**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mətbuat katibi Konstantin Pominov** Ümummilli Liderimizin hakimiyyətə gəldiyi ilk vaxtlardan dini sahəyə, dini konfessiyaların ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyi vurğulayıb. Onun əsasını qoyduğu modelin bu gün ölkəmizdə sabitliyin, tolerantlığın, dinamik inkişafın başlıca qarantına çevrildiyini deyib.

Sonra Ümummilli Liderlə bağlı xatirələrini və zəngin irsi barədə fikirlərini bölüşən **Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı** DQİDK-nın Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə din xadimləri və dini icmaların üzvləri arasında elan etdiyi "Heydər Əliyev siyasəti: Azərbaycanın dövlət-din modeli" mövzusunda yazı müsabiqəsinin nəticələri ilə bağlı məlumat verib. Şəki Şəhər Mərkəzi "Cümə" məscidi dini icmasından Müşviq Xəlilov I yerə, Ceyranbatan qəsəbə məscidi dini icmasından Əli Şərbətov II yerə, Şəki Şəhər Mərkəzi "Cümə" məscidi dini icmasından Əlyəsə Əslanov III yerə, 3 icma nümayəndəsi isə həvəsləndirici mükafata layiq görülüblər.

Dövlət Komitəsi tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun yeniyetmə və gənclər arasında keçirdiyi "Ulu Öndərin izi ilə" adlı rəsm müsabiqəsi barədə Fondun icraçı direktoru Mehman İsmayılov məlumat verib. Nursalə Nabatəliyeva I, Nigar Vəliyeva II, Elmar Məmmədzadə III yer üzrə qalib olublar, digər 5 nəfər gənc isə həvəsləndirici mükafat qazanıblar.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ QUBADA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 12-də Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, dini qurumların dövlət qeydiyyatına alınması, məscidlərin dini ədəbiyyatlarla təmin edilməsi, dini təhsil, habelə digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi istiqamətində tapşırıqlar verilib.



# ULU ÖNDƏRİN İRSİ MİLLİ DƏYƏRİMİZDİR



*Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq, həqiqi millət ola bilməz.*

**Heydər Əliyev,**
Ümummilli Lider

*Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.*

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan dünyada mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı bağlılıq yaradan tarixi məkan kimi tanınır. Azərbaycanın davamlı inkişaf yolunda inamla irəliləməsi Ümummilli Lider Heydər Əliyevin həyat amalının, Vətən sevgisinin təntənəsidir. Atdığı hər bir addımla bu günün güclü, bütöv Azərbaycanı üçün çalışan dahi şəxsiyyət ölkəmizi yox olmaq təhlükəsinin bir addımlığından xilas edərək onu dünyaya yeni simada təqdim edib. Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk gündən xalqımızın milli özünüdərki üçün zəruri tədbirlər həyata keçirməyə başlamış, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır.

Fövqəldüşüncə sahibi dahi liderin siyasətinin əsas fəlsəfəsi mükəmməl olmaqla bərabər, həm də əhatəli idi. Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirmişdir. Heydər Əliyevin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunub, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilib. Ulu Öndər Heydər Əliyev xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirib. Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi gənc müstəqil dövlətimizin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın inkişafına mühüm təsir göstərib. Azərbaycan xalqının tarixində və taleyində müstəsna xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyev respublikaya rəhbərliyinin hər iki dövründə milli-mənəvi dəyərlərimizə xüsusi əhəmiyyət verib, milli şüurumuzda inqilabi dəyişikliklər edib. Onun milli lider kimi mühüm xidmətlərindən biri də xalqımızın tarixi tərəqqi yolunu, mənəvi dəyərlərini əks etdirən azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırmasıdır. Azərbaycanın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycanın dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. Bir-birini ahəngdar şəkildə tamamlayan bu iki baxışlar sistemi dövlət maraqları ilə yanaşı, milli-mənəvi dəyərlər, mədəni və etnokonfessional müstəvidə müxtəlifliklər arasında harmonik uzlaşmanı təmin etməsi ilə səciyyələnir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdə görülən işlər özünüdərk duyğularını keçmiş ideoloji sistemin buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxışdırılıb qalmış dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdır. Ulu Öndər xalqın milli heysiyyətini gücləndirmək, onu öz soy-kökünə qaytarmaq, zəngin ədəbi irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməli olduğunu çox yaxşı bilir və bu yöndə atdığı hər addımla həyatına təhlükələr yarana biləcəyini də çox gözəl anlayırdı. Müasir Azərbaycanın memarı olaraq tarixə düşən Heydər Əliyev Azərbaycanı hər zaman özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qətiyyətli addımlar atır, əməli işlər görür, özünün iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq Ümummilli Liderini sevir, parlaq zəkasını qiymətləndirir və onun yeritdiyi siyasi kursu dəstəkləyirdi. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ulu Öndərin milli və dövlətçilik maraqlarına xidmət edən zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqı bundan sonra da bu böyük məktəbdən, Ümummilli Liderin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq, Azərbaycan Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda əmin addımlarla irəliləyərək yeni zirvələr fəth edəcək. Əminliklə söyləmək olar ki, Heydər Əliyev irsi gələcək nəsillər üçün də zəngin xəzinə olacaq.

Heydər Əliyev müdrik şəxsiyyət kimi bir tarix, salnamə yaradıb, zamanın axarını nizamlamaq qüdrətinə sahib olub. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin öz xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil edir. Ümumiyyətlə, Heydər Əliyevin həyat amalı, uzaqgörən siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil dövlət qurmaq idi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən proseslərdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1993-cü ilin yayında Azərbaycan çətin mürəkkəb şəraitdə olduğu zaman xalqın təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyildi.

Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan özünün yeni, əzəmətli mərhələsinə qədəm qoydu. Bu qayıdış ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Heydər Əliyev tarixə müasir müstəqil Azərbaycanın memarı olaraq düşdü. Ümummilli Liderin hakimiyyətə gəlişi ölkəmizi yalnız iqtisadi cəhətdən irəli aparmadı, eyni zamanda Azərbaycan xalqının mənəvi aləmində, milli şüurunda böyük təkamülün, dəyişikliyin yaranmasına gətirib çıxardı. Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin iqtisadi, siyasi, sosial, mənəvi, habelə ideoloji əhəmiyyəti var idi. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev özünün gərgin əməyi, uğurlu daxili və xarici siyasət strategiyası ilə ölkəmizin iqtisadi inkişafının, daxili siyasi sabitliyin və əmin-amanlığın, milli-mənəvi dəyərlərə qayıdışın, bu dəyərlərin qorunması və təbliğ edilməsinin rəhninə çevrildi.

Heydər Əliyevin prezidentliyi dövründə (1993-2003-cü illərdə) ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, Azərbaycan, sözün əsl mənasında mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib. Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda inamla irəliləyir, qazanılan möhtəşəm uğurlar ölkəmizin qüdrətinin daha da artmasını təmin edir.

Məlumdur ki, tarixi şəxsiyyətlər, o cümlədən liderlər xidmətlərinin miqyasına görə fərqli səviyyədə qəbul olunurlar. Elələri var ki, mənsub olduğu xalqın hüdudlarını aşa bilmir, yalnız öz doğma vətənində hörmətlə yad edilir, elə simalar da var ki, onlar öz xalqının təkcə sevimlisinə yox, həm də idealına çevrilir. Heydər Əliyevin bütün sahələrdə qurucu istiqamət üzrə təşəbbüskar fəallığı, strateji hədəflərə nail olması, Azərbaycanın perspektivləri üçün yorulmaz fəaliyyəti onu başqaları üçün də örnək simaya çevirdi.

Azərbaycançılığın inkişafında göstərdiyi xidmətlər, ümumiyyətlə, bənzərsiz liderlik keyfiyyətləri ilə yanaşı, siyasi ideoloq və strateq olaraq da Heydər Əliyev Azərbaycan coğrafiyasına, yalnız bir zamana sığmayan milli və milli olduğu qədər də bəşəri şəxsiyyət kimi qəbul edilir. Ulu Öndər 1969-cu ildə Azərbaycan SSR-in rəhbərliyinə gələrkən respublikada çox fərqli - millilikdən get-gedə uzaqlaşan, iqtisa-

davamı səh. 5

# ULU ÖNDƏRİN İRSİ MİLLİ DƏYƏRİMİZDİR

əvvəli səh. 4

diyyatı tənəzzülə uğrayan və mərkəzdən tam asılı bir idarəçilik mexanizmi mövcud idi. Məhz Heydər Əliyevin atdığı uzaqgörən addımlar, gələcək perspektivə hesablanmış işlər Azərbaycanı fərqli məcraya yönəltdi. Xalq iqtisadi, mədəni və mənəvi gerilikdən qurtuldu.

Tarixi faktlar da sübut edir ki, müxtəlif dünyagörüşünə, milli-mənəvi dəyərlər sisteminə, dini baxışlara sahib olan xalqların bir-biri ilə dialoq qurmaq, ortaq dil tapmağa çalışmaq kimi nəcib təşəbbüsləri bir çox hallarda bəşəriyyəti fəlakətlərdən, müharibə və toqquşmalardan xilas etmişdir. Təsadüfi deyil ki, müasir dünyada sivilizasiyaların dialoquna, tolerant düşüncə tərzinə, müxtəlif etnomədəni topluluqların birgəyaşayışına nail olmaq demokratik cəmiyyət qurmağın təməl prinsiplərindən biri hesab olunur.

Tarixən başqa millətlərə və dinlərə, fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda bu gün müşahidə edilən tolerantlıq xalqımızın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə müxtəlif dünyagörüşlərinin, milli-mənəvi dəyərlərin, dini-sakral baxışların qovuşduğu bu torpaqlarda yaşayan insanlar birgəyaşayışın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, fərqli mədəniyyətlərin dialoqunu öz gündəlik həyatında hiss edir.

Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlayıb və nəsildən-nəsilə ötürüb. Şübhəsiz, bunda dini etiqadın rolu böyük olub. Təsadüfi deyil ki, günümüzədək gəlib çıxan milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Həyatına daxil olan bütün dinlərin, xüsusilə də İslamın əsl mahiyyətini dərk edən, saflığını qoruyan xalqımız onun insanı paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışıb. Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmayıb, əksinə milli-dini dəyərlərinə daha böyük istəklə sarılıb. Ömrünün sonunadək milli-mənəvi dəyərlərimizə sadiq qalmış, onun qorunmasının və inkişafının hamisi olmuş Ulu Öndər Heydər Əliyev deyirdi ki, "bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Milli-mənəvi dəyərlərin qorunması məsələsi Heydər Əliyevin fəaliyyətində aparıcı xətt kimi özünü göstərib. Ulu Ondər istər ailədə, istər hansısa dar çevrədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmışdır. İdarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da əslində, Onun zəngin mənəviyyatından irəli gəlirdi. Böyük strateq həmişə vurğulayırdı ki, Azərbaycan xalqında əsrlər boyu formalaşan milli-mənəvi dəyərlər mədəniyyətdən, əxlaqdan, adət-ənənələrdən və digər insani keyfiyyətlərdən ibarətdir. Onun müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətinin əsasında da məhz bu dayanır. Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük və qarşılıqlı hörmət mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir. Bütün bunlar həm də Ulu Öndər Heydər Əliyev siyasətini layiqli formada davam etdirən Prezident İlham Əliyevin uğurlarının nəticəsidir. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə, böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir.

Ümummilli Lider həmişə Azərbaycan xalqının mənafeyini düşünən şəxsiyyət olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün həyatını xalqına və Vətəninə həsr etmiş Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub.

Ümummilli Lider həm də Azərbaycan tarixində görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Müasir Azərbaycanı Heydər Əliyevin müəyyən etdiyi yolla inkişafa, tərəqqiyə aparmaq üçün bu kursa sadiq olmaqla yanaşı, məsuliyyətinin ağırlığını dərk edib onu üzərinə götürməyə hazır olan şəxsiyyət lazım idi. Heydər Əliyevin tarixi vəzifəsi Azərbaycanı qorumaq, onun dönməz inkişafı üçün zəruri zəmin yaratmaq idisə, onu güclü və qüdrətli ölkə səviyyəsinə qaldırmaq missiyasını İlham Əliyev üzərinə götürdü.

Heydər Əliyevin əsasını qoyduğu bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, dövlət maraqlarını, xalqın mənafeyini, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerant ənənələrinin güclənməsinə geniş imkanlar açır. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar ölkəmizdə mövcud olan milli-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsidir.

Son illər respublikamız Prezident İlham Əliyevin birbaşa öz təşəbbüsü və iştirakı ilə çoxlu sayda sivilizasiyalararası dialoqla əlaqədar beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Azərbaycan bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlara, beynəlxalq qurumların toplantılarına evsahibliyi edib. Məhz bu cür tədbirlər dinlərarası və sivilizasiyalararası dialoqun mədəniyyətlər arasında körpü rolunu oynaması və müasir dövrün problemlərinin həll olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqinə töhfə vermək məqsədi daşıyan bu cür tədbirlər dövlət başçısının dövlət-din münasibətlərinin qorunmasına, dinlər, xalqlar və ölkələr arasında əməkdaşlığın inkişaf etməsinə verdiyi dəyərin, yürütdüyü siyasətin bariz nümunəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi bu tolerantlıq siyasəti regionda və dünyada belə tərəfdaşlığın möhkəm fundamentini yaratmaqla bölgədə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə müsbət təsir göstərir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı qələbə "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut etdi. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar. Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən lider kimi xalqımızın böyük rəğbətini qazanıb.

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri arasında xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin bütün sahələrindəki davamlı inkişaf Prezident İlham Əliyevin qarşısına qoyduğu məqsədləri uğurla yerinə yetirdiyini göstərir. 44 günlük Vətən müharibəsində xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin bir daha şahidi oldu.

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu da xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev irsinə olan sevgisini daha da gücləndirir. Mədəni irsimizin qorunmasına, tarixi abidələrimizin bərpasına böyük önəm verən, beynəlxalq aləmdə milli, dini dəyərlərimizin təbliği sahəsində məqsədyönlü işlər görən, Azərbaycan xeyriyyəçilik ənənələrinin dirçəldilməsində layiqli nümunə göstərən Heydər Əliyev Fondunun fəaliyyəti ölkəmizdə dinə olan dövlət qayğısının əyani təzahürüdür.

Ulu Öndər 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu uzaqgörənliyini təsdiq edir və Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana yüksək bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalqımız öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü.
*"Respublika" qəzeti*

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ YENİ KİTABLAR NƏŞR OLUNUB







Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə “Prezident İlham Əliyevin siyasəti: dövlət-din münasibətləri və müasir çağırışlar” adlı kitab nəşr olunub. Kitabın redaktoru Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, müəllifləri isə Dövlət Komitəsinin Ümumi şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səlimov və Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyevdir.

Kitabda Azərbaycanda dünya dinlərinin yayılması və dini müxtəlifliyin təşəkkülü tarixi, dini sahədə dövlət siyasətinin məqsəd və vəzifələri, dünyəvi dövlət-din modelinin hüquqi əsasları tədqiq edilir. Milli-dini həmrəyliyin möhkəmləndirilməsi və azərbaycançılıq məfkurəsinin ictimai fikirdə aparıcı yer tutması məqsədilə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mahiyyəti şərh olunur. Dünyada multikulturalizmə dair müxtəlif yanaşmalar və onun nəticələri, qloballaşmanın milli-dini kimliyə təsiri araşdırılır. Dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafı, xalqımızın tarixi-dini abidələrinin qorunması sahəsində Prezident İlham Əliyevin apardığı siyasətin xüsusiyyətləri, o cümlədən Heydər Əliyev Fondunun fəaliyyəti təhlil edilir. Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi məsələsi, Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbə əldə etməsində Ali Baş Komandan İlham Əliyevin apardığı qətiyyətli və prinsipial siyasət, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin böyük şücaəti və qəhrəmanlığı, millidini birliyin oynadığı rol şərh olunur.

***

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən nəşr edilmiş növbəti kitab isə “Milli-mənəvi dəyərlərimizin hamisi” adlanır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kitabda Dövlət Komitəsi, tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi, o cümlədən əməkdaşlarının məqalələri yer alıb. Məqalələrdə müstəqilliyimizin bərpasından sonra xalqın yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə sağlam cəmiyyətin formalaşmasına təsir göstərmək, onun tarixi yaddaşını, milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürmək kimi tarixi missiyanı üzərinə götürən Ümummilli Lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi işlər geniş şəkildə şərh edilir. Müasir Azərbaycanın memarı Ulu Öndərin dövlət-din münasibətlərinin təşəkkülündə və inkişafındakı əvəzsiz xidmətlərindən bəhs olunur.

Kitabda multikulturalizmin Azərbaycan modeli, müasir Azərbaycanda tolerantlıq ənənəsinin inkişafı, milli-mənəvi dəyərlərimizə qayıdış, azərbaycançılığın dövlət ideologiyası səviyyəsində təsbit olunması kimi vacib məqamlara da toxunulub.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan nəşrin dünya şöhrətli tarixi şəxsiyyətin siyasi irsinin öyrənilməsi və təbliğində əhəmiyyətli rol oynayacağına, habelə dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində çalışan mütəxəssislərə, eləcə də siyasi şərhçilərə, gənc tədqiqatçılara faydalı olacağına ümidvarıq.

# DÖVLƏT KOMİTƏSİ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA SƏFƏR EDİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının (SƏK) İslam Məsələləri, Çağırış və İrşad Nazirliyinin (nazirlik) dəvəti ilə sözügedən ölkəyə səfər edib.

Səfər çərçivəsində Mübariz Qurbanlı 31 may tarixində Ciddə şəhərində SƏK-nin İslam Məsələləri, Çağırış və İrşad naziri Şeyx Əbdüllətif bin Əbdüləziz Əl-Şeyxlə görüşüb.



Görüşdə naziri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, Dövlət Komitəsinin fəaliyyəti barədə məlumatlandıran DQİDK sədri Azərbaycanda dini sahəyə daim diqqət və xüsusi qayğının göstərildiyini, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasətin dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda, xalqımızın milli-mənəvi dəyərlərinin, İslamda vəhdətin daha da möhkəmlənməsinə yönəldiyini bildirib.

Sədr, eyni zamanda ölkəmizdə 958-i İslam, 37-si isə qeyri-islam təmayüllü olmaqla, 995 dini qurumun dövlət qeydiyyatından keçdiyini, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə mütəmadi olaraq maliyyə yardımının ayrıldığını nəzərə çatdırıb. Həmçinin respublikamızda 16 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib.

Dövlət Komitəsinin sədri Azərbaycan-SƏK münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə həmin ölkəyə rəsmi səfəri ilə qoyulduğunu, hazırda iki ölkə arasındakı əlaqələrin Prezident cənab İlham Əliyevin apardığı siyasətlə daha da inkişaf etməkdə olduğunu diqqətə çatdırıb.

Öz növbəsində nazir ölkəsində aparılan islahatlar, Azərbaycan-SƏK arasındakı əlaqələrin bütün sahələrdə olduğu kimi humanitar və dini, mənəvi sahələrdə də inkişafı, o cümlədən İƏT çərçivəsindəki əməkdaşlığı qeyd edərək, SƏK-də dini ekstremist meyillərə qarşı aparılan mübarizə və məzhəblərarası vəhdətin təmin edilməsi istiqamətində atılan addımlar barədə fikirlərini bölüşüb.

Görüş çərçivəsində Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Səudiyyə Ərəbistanı Krallığının İslam Məsələləri, Çağırış və İrşad Nazirliyi arasında Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri Şahin Abdullayevin də iştirak etdiyi tədbirdən sonra M.Qurbanlı yerli televiziya kanallarına müsahibə verib.

Qeyd edək ki, sözügedən səfər Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın 15.12.2021-ci il tarixində Ər-Riyad şəhərində keçirilmiş 6-cı iclasının Protokoluna əsasən, İslam məsələləri sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə SƏK-in İslam Məsələləri, Çağırış və İrşad Nazirliyi arasında Anlaşma Memorandumunun imzalanması barədə əldə edilmiş razılıq əsasında həyata keçirilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Mayın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Belçikada fəaliyyət göstərən siyasi elmlər doktoru, tədqiqatçı Sebastien Bussua ilə görüşüb.

Dövlət Komitəsinin sədri qonağa ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında məlumat verib. Dinə dövlət qayğısından bəhs edən M.Qurbanlı Azərbaycanda 37 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını, 16 kilsə, 7 sinaqoq, eləcə də müxtəlif dinlərə məxsus ayrı-ayrı ibadət evlərinin fəaliyyət göstərdiyini bildirib. Diqqətə çatdırıb ki, Azərbaycan tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyada örnək göstərilən ölkələrdəndir. Prezident İlham Əliyevin sərəncamları, tapşırıq və tövsiyələri ilə ölkəmizdə məscidlərlə yanaşı, bir sıra kilsə, sinaqoqlar tikilib və bərpa olunub, mütəmadi olaraq müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımı göstərilir, dini bayramlar yüksək səviyyədə qeyd olunur.

Görüş zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkən Mübariz Qurbanlı vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə tarixi-dini abidələrin bərpası dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi diqqətindədir.

Qonaq Azərbaycanda müxtəlif dinlərə məxsus icmalara yüksək diqqət və qayğını, müxtəlif dini konfessiya nümayəndələrinə dövlət tərəfindən həm mənəvi, həm də maddi dəstək verilməsini unikal nümunə kimi dəyərləndirib. Həmçinin Komitə sədrinə dini sahə ilə bağlı müxtəlif suallar ünvanlayıb.

Sonda qonağa Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar təqdim edilib.

***

Mayın 15-də isə DQİDK-nın sədri Mübariz Qurbanlı belçikalı fotoqraf Frank Döpev, "Atabey" təşkilatının prezidenti Yuniskski Fahardo və layihə koordinatoru Juli Böfisi qəbul edib.

Qonaqlara Azərbaycanda multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğu barədə ətraflı məlumat verən M.Qurbanlı qeyd edib ki, ölkəmizdə dini etiqad azadlığı tam təmin olunur və bütün dini konfessiyalara bərabər şərait yaradılır. Komitə sədri bildirib ki, hər bir vətəndaş dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq "Dini etiqad azadlığı haqqında" Qanunun ona verdiyi imkanlardan tam şəkildə istifadə edə bilir.

Komitə sədri xüsusi olaraq diqqətə çatdırıb ki, ölkəmizdə müxtəlif dini konfessiyalar arasında hökm sürən və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin daha da möhkəmlənməsi və inkişaf etdirilməsində Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl siyasət dayanır. Mütəmadi olaraq məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur, dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi üçün dövlət tərəfindən hər il maliyyə yardımı ayrılır.

Qonaqlar Azərbaycanın müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkələr sırasında olmasının əhəmiyyətindən bəhs edərək, ölkəmizin multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətinin təqdirəlayiq hal olduğunu vurğulayıblar. Azərbaycanla bağlı bir neçə layihə reallaşdıracaqlarını deyən qonaqlar ölkəmizə xas multikultural və tolerant ənənələrin daha geniş təbliğ və təşviqinin vacibliyindən danışıblar.



Qeyd edək ki, sözügedən şirkətin nümayəndələri Belçikada keçiriləcək "AR nuvo" sərgisi üçün ölkəmizdəki xüsusi memarlıq üslubuna malik binaların və Qırmızı Qəsəbənin fotolarını lentə almaq məqsədilə Azərbaycana səfər ediblər.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşün sonunda qonaqlara DQİDK-nın xarici dillərdə nəşr etdirdiyi, Azərbaycanın tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

***

Dövlət Komitəsində daha bir görüş mayın 24-də baş tutub.



DQİDK-nın sədri Mübariz Qurbanlı ABŞ-nin Yuta ştatından gələn Sonuncu Gün Müqəddəslərinin İsa Məsih Kilsəsinin rəhbəri Devid Bednarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Dövlət Komitəsinin sədri ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətləri, tolerant dəyərlərin inkişafına verilən önəm, o cümlədən Komitənin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Bildirib ki, çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə bu gün dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Bu sahədə qanunvericiliyimizin əsasını ölkə Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" Qanun təşkil edir. M.Qurbanlı, eyni zamanda ölkəmizdə 37-si qeyri-islam təmayüllü olmaqla 995 dini qurumun dövlət qeydiyyatından keçdiyini, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə mütəmadi olaraq maliyyə yardımının ayrıldığını nəzərə çatdırıb. Formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər sayəsində respublikamızda 16 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Devid Bednar Azərbaycanın multikultural dəyərlərə verdiyi önəmdən söz açıb. Ölkəmizin nümunəvi dinlərarası dialoq, birgəyaşayış modeli sərgilədiyini qeyd edən qonaq respublikada qeyri-islam təmayüllü dini icmaların bərabərhüquqlu fəaliyyət göstərməsi üçün bütün lazımi şəraitin yaradılmasının əhəmiyyətini xüsusilə vurğulayıb. İsa Məsihin Son Günlər Müqəddəsləri Kilsəsinin Yetmişlər qərargahının baş direktoru Elder Erik Kopişke isə Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar, dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq və qardaşlıq mühitini müsbət hal kimi dəyərləndirib. Sonda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

***

Mayın 8-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov Almaniyada fəaliyyət göstərən yevangelist xristian kilsəsinin pastorları Viktor Şults, Sergey Zaybel, Erhard Doyan və Paul Lanqe ilə görüşüb.



Səyavuş Heydərov ölkəmizdə dini sahədə həyata keçirilən uğurlu siyasət barədə məlumat verərək, Azərbaycanda vicdan və dini etiqad azadlığının tamin edilməsinə, dinlərarası harmoniyanın qorunub saxlanılmasına, hər kəsin etiqad etdiyi dinə ehtiramla yanaşılmasına, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirib. Bu ali dəyər və ənənələrin gənc nəsillərə aşılanmasının prioritetlər sırasında yer aldığını deyib. Azərbaycanın islamofobiya, ksenofobiya və bu kimi mənfi tendensiyalara qarşı mübarizədə hərəkətverici qüvvəyə çevrildiyini vurğulayan S.Heydərov bəzi siyasi mərkəzlər tərəfindən dinin siyasiləşdirilməsi faktoruna da toxunub.

Səmimi qəbula görə təşəkkür edən qonaqlar xalqımızın qonaqpərvərlik, tolerant dəyərlərə verdiyi önəmin əhəmiyyətindən söz açıblar, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün dini icmalara yaradılan zəruri şəraiti, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndiriblər.



# "MƏŞƏDİ DADAŞ" MƏSCİDİNƏ QADIN DİNİ AYİNLƏRİN İCRAÇISI TƏYİN EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Bakı şəhəri, Nəsimi rayonu "Məşədi Dadaş" məscidinə qadın dini ayinlərin icraçısı təyin edib.

Dövlət Komitəsi sədrinin əmri ilə bu vəzifəyə Elnarə Orucova təyinat alıb. E.Orucova İslam dininə aid ibadət yerlərinə qadın dini ayinlərin icraçısı vəzifəsini tutmaq üçün Dövlət Komitəsinin cari ilin 13-15 fevral tarixlərində təşkil etdiyi müsahibədən yüksək bal toplayaraq uğurla keçib.

# TƏYİNAT ALAN DİN XADİMLƏRİ İLƏ DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən 13-15 fevral 2023-cü il tarixində İslam dininə aid ibadət yerlərində imam və imam müavini vəzifələrinin tutulması üçün keçirilmiş müsahibədə uğur qazanan və təyinat alan din xadimləri ilə görüş keçirilib.

Mayın 1-də keçirilən görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, dinə dövlət qayğısı, vəhdət və həmrəyliyimizin əhəmiyyəti barədə danışıb. Bildirib ki, dinin dövlətdən ayrı olması dünyəviliyin təməl daşıdır və bu heç də dövlətin dini, dindarı diqqətdən kənarda saxlaması deyil. Əksinə, dövlət bütün dinlərə fəaliyyət göstərmələri, inkişaf etmələri üçün hər bir şərait yaradır. Bunun ən yaxşı nümunəsi isə Azərbaycandır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modeli bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib.

M.Qurbanlı qeyd edib ki, müasir dünyada dinə təkcə etiqad nöqteyi-nəzərdən yanaşılmır, ondan mahiyyətinə uyğun olmayan başqa məqsədlərlə də istifadə edilir. Bu kimi halların yolverilməz olduğuna diqqət çəkən Komitə sədri kimliyindən asılı olmayaraq hər bir vətəndaşın dövlətçilik maraqları və mövqeyinin öncüllük təşkil etməsinin vacibliyinə toxunub. Vurğulayıb ki, həm dinin öz ilahi təyinatına uyğun müqəddəsliyinin qorunması, həm də ondan hansısa destruktiv məqsədlər üçün istifadə olunmasının qarşısının alınmasında din xadimləri də xüsusi fəallıq nümayiş etdirməlidirlər. O, yeni təyinat alan din xadimlərinin dövlətin din siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlərə öz töhfələrini verəcəklərinə ümidvar olduğunu bildirib.

Dövlət Komitəsi sədrinin müavinləri Sahib Nağıyev və Gündüz İsmayılov, müvafiq şöbə müdirlərinin də iştirak etdikləri görüşün sonunda din xadimlərini maraqlandıran suallar cavablandırılıb və müvafiq tövsiyələr verilib.

***

Din xadimləri ilə daha bir görüş isə may ayının 11-də baş tutub.

Görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı din xadimlərini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra din xadimlərinə tövsiyələrini verən M.Qurbanlı milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdə onların üzərinə düşən vəzifələrə diqqət çəkib. Bildirib ki, İslam dininin əsaslarının, məram və məqsədinin olduğu kimi cəmiyyətə çatdırılmasında, həm də ondan hansısa destruktiv məqsədlər üçün istifadə olunmasının qarşısının alınmasında din xadimləri aktivlik nümayiş etdirməli, mənfi tendensiyalara qarşı mübarizədə, ideoloji sahədə aparılan maarifləndirmə işlərində ön sıralarda yer almalıdırlar. Komitə sədri, həmçinin məscidlərdə vəhdət prinsipinə, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvalarına əməl olunmasının vacibliyini vurğulayıb.

Din xadimləri öz növbələrində məscidlərə məhz bu qaydalar əsasında təyinatın həyata keçirilməsindən məmnunluqlarını ifadə edərək, imtahanların obyektiv və şəffaf təşkil edilməsindən razılıqlarını bildiriblər.

Sözügedən din xadimlərinin təyinatı və vəzifələri barədə məlumatı təqdim edirik:

1. Verdiyev Məhəmməd Həsən oğlu – Zaqatala rayonu, "Yengiyan" kənd məscidi (İmam müavini)
2. Qulamov Asif Ərəstun oğlu – Suraxanı rayonu, Qaraçuxur qəsəbə məscidi (İmam müavini)
3. Tahirov Turab Əliqan oğlu – Abşeron rayonu, "Aşağı Güzdək" qəsəbə məscidi (İmam müavini)
4. Səmədov Məcid Ələsgər oğlu – Saatlı şəhəri, "Şeyx Yusif" məscidi (İmam)
5. Babaşov Saleh Zubeyir oğlu – Qəbələ şəhəri, "Səkkizguşəli" məscidi (İmam)
6. Əbdürəhimov Pünhan Qasım oğlu – İsmayıllı rayonu, Lahıc qəsəbəsi "Bədöyün" məscidi (İmam müavini)
7. Aslanlı Ramil Zakir oğlu – Yasamal rayonu, "Hacı Cavad" məscidi (İmam)
8. Əliməmmədov Cəlal Mövlan oğlu – Quba rayonu, "Hacı Hüseynli" kənd məscidi (İmam müavini)
9. Qurbanov Aftandil Kitab oğlu – Astara rayonu, Şuvi kənd məscidi (İmam müavini)
10. Qurbanov Vüqar Ələddin oğlu – Gəncə şəhəri, "Şah Abbas" məscidi (İmam)
11. Mərcanov Mərdalı Muxəmməd oğlu – Şamaxı rayonu, Qaleybuğurd kənd məscidi (İmam müavini)
12. Əlicanov Rahil Abdulbaği oğlu – Sabirabad rayonu, Kovlar kənd məscidi (İmam müavini)
13. Yunusov Şahbaz Mirxas oğlu – Cəlilabad rayonu, Həziabad kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
14. Bayramov Rəmzin Ruşan oğlu – Masallı rayonu, Şıxlar kənd məscidi (İmam müavini)
15. Xurşidov Sobit Soliyeviç – Sabirabad rayonu, Əhmədabad kənd 2 №li məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
16. Mirzəyev Əbdülhüseyn Əbdülhəsən oğlu – Sabunçu rayonu, Nardaran qəsəbəsi "Cümə" məscidi (İmam)
17. Kərimov Seyid Kərim oğlu – Qəbələ rayonu, "Böyük Pirəli" kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
18. İbrahimov Rövşən İbrahim oğlu – Balakən şəhəri, "Mərkəzi Cümə" məscidi (İmam müavini)
19. Ömərov Xizri Şaban oğlu – Zaqatala rayonu, Car kənd məscidi (İmam müavini)
20. Talıbov İsmət Aqil oğlu – Zərdab rayonu, Qoruqbağı kəndi "Cümə" məscidi (İmam müavini)
21. Əskərov Hafiz Adil oğlu – Lənkəran rayonu, Girdəni kənd məscidi (İmam müavini)
22. Ağalarov Laçın Səməd oğlu – Qəbələ şəhər məscidi (İmam)
23. Fərəczadə Seyran Akif oğlu – Quba şəhəri, "Cümə" məscidi (İmam)
24. Ziyaddinov Ruslan Əşrəf oğlu – Xaçmaz rayonu, Qaracəlli kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
25. Səlimov Azər Ağamir oğlu – Şəki rayonu, "Baltalı" kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
26. Qiyasov Natiq Saday oğlu – Sabirabad rayonu, Muğan-Gəncəli 1 saylı kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
27. Zülfüqarov Pərviz Çingiz oğlu – Qəbələ şəhəri, "Cümə" məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
28. Məmmədov Nəbi Nərman oğlu – İsmayıllı rayonu, "Topçu" kənd məscidi (İmam müavini)
29. Rüstəmov Rasəf Müsəf oğlu – İmişli şəhəri, "Cümə" məscidi (İmam)

# "ABŞ-NİN HESABATLARINDA POZUNTU KİMİ TƏQDİM EDİLƏN HALLAR AZƏRBAYCANIN DİNİ ETİQAD AZADLIĞININ MÖVCUD VƏZİYYƏTİNİ ƏKS ETDİRMİR"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi (ixtisarla)*

**- Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının 2022-ci il üzrə hesabatında Azərbaycanda "Dini etiqad azadlığı haqqında" Qanuna 2022-ci ildə edilmiş dəyişikliklər, o cümlədən din xadimi təyinatının Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilməsi, əqidəyə görə həbslərin aparılması, qeyri-müsəlman dini icmaların dövlət qeydiyyatına alınmaması və dini etiqadı yol verməmiş halda Yehovanın şahidlərinin xidmətə aparılması ilə bağlı fikirlər öz əksini tapıb? Oxşar fikirlərə bir neçə gün öncə ABŞ Dövlət Deportamentinin 2022-ci il üzrə Beynəlxalq Din Azadlığı hesabatının Azərbaycan hissəsində də yer verilib. Sizcə, qeyd edilənlər Azərbaycan reallıqlarına uyğundur? Ölkəmizdə dini vəziyyət əslində necədir?**

- ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının, eləcə də Dövlət Departamentinin hesabatlarındakı pozuntu kimi təqdim edilən hallar Azərbaycanın dini etiqad azadlığının mövcud vəziyyətini əks etdirmir. Həmin hesabatlarda bəzi məqamların araşdırılmadığı, müstəqil olmayan və ənənəvi olaraq Azərbaycan əleyhinə məlumatlar yayan mənbələrdən istifadə edildiyi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsi diqqəti cəlb edir. Bu, hesabatların obyektivliyinə ciddi xələl gətirir, ümumiyyətlə, onların hazırlanmasında ifadə edilən məqsəd və məramlara qətiyyən uyğun gəlmir. Məsələn, 2022-ci ilin fevral ayında Milli Məclisin deputatlarının təşəbbüsü ilə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə edilmiş dəyişiklik və bunun nəticəsində İslam dininə aid yerlərə din xadimi təyin edilməsinin Dövlət Komitəsinin səlahiyyətinə verilməsini dini etiqad azadlığının məhdudlaşdırılması və dövlətin dinə müdaxiləsi kimi təqdim olunub. Halbuki, həmin dəyişiklik layihəsi geniş ictimai müzakirəyə çıxarılıb və ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib. Eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi Qanuna olunmuş dəyişiklikləri dəstəklədiyinə dair bəyanat verib.

Dəyişiklikliyin Konstitusiyaya zidd olması ilə bağlı iddiaya gəlincə, hüquqşünaslar və mütəxəssislər tərəfindən bu iddalar əsassız sayılır. Çünki "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa görə, din xadimləri yenə də dini məsələlərdə QMİ-yə tabedirlər. Eyni zamanda, dini icmaların dövlət qeydiyyatına alınması, onların təsisçiləri sırasında dəyişikliklərin edilməsi proseduru sadələşdirilmişdir. Artıq müsəlman

davamı səh. 9

# "ABŞ-NİN HESABATLARINDA POZUNTU KİMİ TƏQDİM EDİLƏN HALLAR AZƏRBAYCANIN DİNİ ETİQAD AZADLIĞININ MÖVCUD VƏZİYYƏTİNİ ƏKS ETDİRMİR"

əvvəli səh. 8




icmalardan bunun üçün dini mərkəzlərindən təqdimat alınması tələb olunmur.

Hesabatlarda iddia edilir ki, dini icmaların, xüsusilə də xristian dini icmalarının dövlət qeydiyyatına alınmasında problemlər, məhdudiyyətlər var. 2022-ci ildə qeydiyyatdan keçmiş dini icmaların İslam dininə aid olmasını və bölgələrdə xristian dini icmaların sayının az olmasını qabartmaqla Azərbaycanda bu sahədə ayrı-seçkiliyin olması görüntüsünü yaratmağa çalışmışlar. Həqiqət isə ondan ibarətdir ki, ötən il qeydiyyatdan keçmək üçün Dövlət Komitəsinə xristian icmaların müraciəti daxil olmayıb və müraciət etmiş bütün dini icmalar dövlət qeydiyyatına alınıb. Həmçinin, Dövlət Komitəsi tərəfindən ölkədəki dini konfessiyaların nümayəndələrinə dövlət qeydiyyatından keçmək üçün tövsiyələr verilib. Bölgələrdə qeydiyyatdan keçmək üçün Qanunun tələbini yerinə yetirə bilməyən, yəni 50 nəfərdən az üzvü olan xristian icmalara öz əqidədaşlarının qeydiyyatdan keçmiş icmaları ətrafında birləşmələri və sərbəst fəaliyyət göstərmələri tövsiyə edilib.

"Yehovanın şahidləri"ndən olan şəxslərin hərbi xidmətə cəlb edilməsi məsələsinə gəlincə, Azərbaycan Respublikasının Konstitusiyasının 76-cı maddəsinə görə, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda bu xidmətin alternativ xidmətlə əvəz olunması təsbit edilib. Lakin Azərbaycanın Ermənistanla müharibə şəraitində olması və Azərbaycan Silahlı Qüvvələrinin sıravi heyətinin müddətli hərbi qulluqçulardan təşkil edilməsi səbəbindən alternativ xidmətlə bağlı müvafiq qanunun qəbul edilməsi mümkün olmamışdır. Cinayət Məcəlləsinin 321-ci maddəsinə əsasən qanuni əsas olmadan hərbi xidmətdən yayınmağa, yəni növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırmağa görə cəza müəyyənləşdirilmişdir. Nəzərinizə çatdırmalıyam ki, 2022-ci ilin sentyabrında Goranboy Rayon Məhkəməsi tərəfindən həbs edilmiş "Yehovanın şahidi" Seymur Məmmədov Gəncə Apellyasiya Məhkəməsinin qərarı ilə 1 il sınaq müddəti ilə şərti cəza tətbiq edilərək məhkəmə zalından azad olunub. Bununla da, yeni hüquq sahəsində presedent yarandı. Eyni zamanda, bu fakt göstərir ki, hansısa icmaya qarşı sistematik siyasət deyil, qanunvericiliyin tələbi tətbiq olunur.

**- Hesabat üzərində xüsusi dayanılan məsələlərdən biri də MBH-nin rəhbəri Tale Bağırov, özünü bu hərakatın üzvləri sayan şəxslərin, həmçinin Sərdar Babayevin məsələsidir. Onlar "dini fəal" və "vicdan məhbusu" adlandırılır. Həmin həbslərə bu cür yanaşma nədən qaynaqlanır?**

- Son dövrlərdə Azərbaycanda müxtəlif ittihamlarla həbs olunan şəxslərin dini əqidəsinin qabardılması, bununla da, cəmiyyətdə dini-siyasi mübarizənin olması təəssüratının yaradılması meyilləri artmışdır. Artıq mütəmadi olaraq, müəyyən qüvvələr şəxslərin həbs olunanadək aktiv dini fəaliyyətlə məşğul olduğuna dair məlumat olmadığı halda, cinayət məsuliyyətinə cəlb olunan kimi dini əqidələri ilə bağlı informasiyalar – ibadət etmələrini, hansısa ziyarətgahda çəkilmiş şəkillərini yaymağa, ajiotaj yaratmağa çalışırlar. Oxşar ssenarini 2022-ci ilin yayında Tale Bağırovun elan etdiyi aclıq aksiyası zamanı da gördük. Heç bir dəlil-sübut olmadan "Polis Allahı təhqir edib" xəbəri yayaraq cəmiyyətin həssaslıqla yanaşdığı məsələdən sui-istifadə etməyə çalışdılar. Rəsmi qurumların bu xəbərin əsassız olduğu barədə açıqlamalarına, hətta hadisənin birbaşa iştirakçısı olduğu deyilən şəxsin belə deyilənləri təkzib etməsinə baxmayaraq, Azərbaycanda, habelə Rusiya, İran və Gürcüstandakı diplomatik nümayəndəliklərimiz qarşısında aksiyalar keçirməyə cəhd etdilər. Bütün bunlar həmin təxribatların xaricdən idarə edildiyini, ölkəmizdə dini zəmində qarşıdurma yaradaraq sabitliyi pozmaq istəyən xarici qüvvələrin mövcudluğunu göstərdi. Bildirməliyik ki, dindən siyasi məqsədlər üçün istifadə edərək Azərbaycana təzyiq göstərməyə çalışan təxribatçı qüvvələr həbs edilmiş şəxslər haqqında "əzabkeş" və "qəhrəman" obrazı yaratmağa, "dini fəal", "vicdan məhbusu" və digər adlar verməklə cəmiyyətimizdə dini və siyasi qarşıdurma salmağa cəhd edirlər. Görünür həmin təxribatçı qüvvələrlə Qərb institutlarının, xüsusilə də ABŞ-nin adı qeyd edilən təşkilatlarının maraqları üst-üstə düşür. Əks halda, "dini fəal" və "vicdan məhbusu" adlı siyahılar hazırlanarkən istinad edildiyi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 3 oktyabr 2012-ci il 1900 saylı Qətnaməsində təsbit edilmiş meyarlara əsaslanardılar. Həqiqət isə ondan ibarətdir ki, Azərbaycan Respublikası Konstitusiyasına görə, dini mənsubiyyət heç kəsi məsuliyyətdən azad etmir, həmçinin də heç kim əqidəsinə görə həbs olunmur. Sərdar Babayevin həbsi və ona qarşı olan dövlətə xəyanət ittihamı ilə bağlı məsələ barəsində bu gün hansısa fikri səsləndirmək doğru deyil. Hazırda bu məsələ ilə bağlı məhkəmə prosesi davam edir. Məhkəmə iclaslarının tarixi əvvəlcədən elan edilir və ictimaiyyət nümayədələri üçün açıq olur.

**- Hesabatlarda, xüsusilə də ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, eləcə də Naxçıvanda erməni abidələrinin məqsədli şəkildə məhv edilməsi iddia olunur. Son illərdə yalnız ABŞ və digər Qərb institutlarının hesabatlarının bu məsələyə geniş yer ayırdığını, əsasən, Azərbaycana qarşı qərəzli mövqeyini görürük. Belə münasibət nədən qaynaqlanır?**

- 2020-ci ilədək olan hesabatlara nəzər yetirsək, onlarda Azərbaycandakı, xüsusilə də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərimizdəki tarix-mədəniyyət və dini abidələrlə bağlı hansısa məlumata rast gəlmərik. Baxmayaraq ki, Azərbaycan dövləti həmişə həmin ərazilərdə xalqımıza məxsus tarix-mədəniyyət və dini abidələrin erməni silahlı birləşmələri tərəfindən vandalizm aktlarına məruz qalması ilə bağlı dünya ictimaiyyətinə çağırışlar etmişdir. Hətta məscidlərimizin heyvan saxlama yerlərinə çevirilməsi, onların yararsız vəziyyətə salınması, təmir adı altında özgəninkiləşdirilməsi, qədim Azərbaycan dövləti olmuş Qafqaz Albaniyası irsinə aid abidələrin erməniləşdirməsi, müsəlman qəbiristanlarında insan qalıqlarına qarşı təhqiramiz hərəkətlərə yol verilməsi və bu kimi hallar barədə sübutlar təqdim etmişdir. 2020-ci ildə 44 günlük müharibədən sonra vəziyyət tamamilə dəyişdi. İşğalın bitməsilə buradakı abidələrin, o cümlədən dini məbədlərin vəziyyəti, onların necə xarabalığa çevrilməsi gerçəkliyi öz təsdiqini tapdı. Təkcə onu demək kifayətdir ki, 67 məsciddən yalnız 2-si yararlı vəziyyətdə idi. Qalanları isə Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə dağıdılmışdır. Amma hələ dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların bunun obyektiv araşdırılması niyyətini müşahidə etməmişik. Baxmayaq ki, işğal dövründə tarix-mədəniyyət və dini abidələrə qarşı törədilmiş vandalizm aktlarının şəffaf və obyektiv qiymətləndirilməsi məqsədilə Azərbaycan tərəfi dəfələrlə beynəlxalq təşkilatlara, xüsusilə də YUNESKO-ya çağırışlar etmişdir. Lakin bu çağırışlar hələ də cavabsız qalmışdır.

**- Sizcə Azərbaycana qarşı belə münasibətin kökündə nə durur?**

- Azərbaycana qarşı mövqenin kökündə əsasən hegemon qüvvələrin siyasi maraqları dayanır. Onların bəziləri insan hüquq və azadlıqlarının müdafiəçisi, bəziləri də dini qoruyucu adı altında digər ölkələrin daxili işlərinə qarışmaqda maraqlıdırlar. Bizim ölkəyə qarşı isə bunların hər ikisi mövcuddur. Əslində, onlar öz maraqlarını təmin etməyə çalışırlar. Düşünürəm ki, insan hüquq və azadlıqları, eləcə də din adı altında digər ölkələrin daxili işlərinə müdaxilə edilməsi yolverilməzdir. Belə davranışlar bu gün dünyada sülh və əmin-amanlığa ən böyük təhlükədir. Eyni zamanda, Azərbaycan əleyhinə kampaniyalarda erməni lobbisi aktiv şəkildə iştirak edir. Hesabatlarda Azərbaycanla bağlı iddiaların mənbəyi kimi ABŞ-nin Kornel Universitetinin, əslində isə "Ümumerməni Xeyriyyə İttifaqı", "Aragats Fondu" kimi ekstremist təşkilatlar tərəfindən maliyyələşdirilən üç radikal milliyyətçi erməni müəllifin (L.Xaçaturyan, H.Qulyan, S.Bokçeriyan) yazdıqları "informasiya"nın, daha doğrusu, şər və böhtanın əsas götürülməsi onun mahiyyətini bir daha sübut edir. Hesabatların müəlliflərinin nəinki Azərbaycan, dünyadan məlumatsızlığı təəccüb doğurmaya bilməz. Pandemiyaya görə Səudiyyə Ərəbistanı tərəfindən həcc ziyarəti ilə bağlı tətbiq olunan 65 yaş məhdudiyyətinin Azərbaycanla əlaqələndirilməsinin məqsəd və məramını anlamaqda ağıl çarəsiz qalır. Təbii ki, bu da hesabatları hazırlayanların peşəkarlığına və obyektivliyinə şübhələri artırır. Burada digər bir məsələyə diqqət yetirməyinizi istəyirəm. ABŞ-li hüquq müdafiəçilərinin məlumatlarına görə, 2021-ci ildə ABŞ-də dini dözümsüzlük zəminində yəhudi və müsəlmanlara qarşı törədilmiş 1005 cinayət faktı qeydə alınıb. Eləcə də 2022-ci ildə 6720 müsəlman dini ksenofobiyaya məruz qalıb. Anti-İslam əhval-ruhiyyəsinin artması 28%-ə, yəni həyəcanverici həddə çatıb. Amerika reallıqlarının kiçik bir hissəsini əks etdirən bu statistika qarşısında bu sualı verməmək mümkün deyil: hansı haqla dünyaya demokratiya və hüquq dərsi keçirsən? ABŞ belə qondarma və birtərəfli hesabatlar vasitəsilə digər ölkələrə təzyiqlər etmək məqsədi güdür. Təsadüfi deyil ki, hesabat radikallıq, dini və irqi ayrı-seçkiliyin genişləndiyi ABŞ-nin özünü diqqətdən kənarda qoyur.

**- Reallıqda Azərbaycanda dini vəziyyət necədir? İnsanların dini etiqad azadlığı necə qorunur?**

- Azərbaycan kifayət qədər həssas regionda yerləşir. Müstəqilliyini bərpa etdiyi dövrdən etibarən xarici dini-siyasi dairələr ölkəmizdə radikal və ekstremist fikirlərin yayılmasında və ideyalarının daşıyıcıları olan qrupların yaradılmasında maraqlı olublar. Hətta İranda Azərbaycan Respublikasının vətəndaşlarından ibarət "Hüseyniyyun" adında silahlı birləşmənin yaradılması ilə bağlı açıq informasiya mövcuddur. Özlərini bu təşkilatın rəhbərləri kimi təqdim edən şəxslər radikal niyyətlərini gizlətmirlər: Azərbaycan dövlətini hədələyir, Azərbaycanın konstitusion quruluşunu dəyişdirəcəklərini və "Kərimə" dövləti quracaqları, bunun üçün hər vasitədən, eləcə də silahlı mübarizədən istifadə edəcəklərini açıqlayırlar. Bütün bunlar bizdən ölkəmizdə təhlükəsizliyimizə dini sahədən təhdidlərin olmasını inkar etməməyi, din pərdəsi altında sabitliyi pozmaq istəyən, gənclərimizi silahlı, qanlı münaqişələrə cəlb edənlərin qarşısında ayıq-sayıqlığımızı qorumağımızı tələb edir. Bu gün Azərbaycan dövlətinin, o cümlədən Dövlət Komitəsinin qarşısında duran əsas vəzifə hüququn aliliyi prinsipi əsasında insanların dini etiqad azadlığının təmin edilməsidir. Bu azadlığın təmin edilməsində dini sahədən insanların hüquq və azadlığı, həmçinin ictimai və dövlət təhlükəsizliyinə yönəlmiş təhdidlərin qarşısının alınması mühüm məsələdir. Azərbaycanda dini sahədə, insanların dini etiqad azadlığının təmin edilməsində hər il yeniliklər baş verir. Qanunvericilik bazası təkmilləşdirilir, dini icmaların fəaliyyətinə dəstək verilir. Bildiyiniz kimi hər il cənab Prezident İlham Əliyev tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır ki, bu yardımın əhatə dairəsi bütün dini icmalara, o cümlədən 37 qeyri-müsəlman icmasına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəniyyət abidələri bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgələrə səfər edərkən mütləq həmin ərazidə yerləşən dini ibadət yerlərini ziyarət edir, dindarlarla söhbətlər edir, onları dinləyirlər. Eyni zamanda dövlət başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərdəki dini abidələr xüsusi nəzarətə götürülmüşdür. İstisnasız olaraq, həmin ərazilərdə yerləşən dini ibadət ocaqlarının bərpası üçün göstəriş verilmişdir. Artıq Şuşada dağıdılmış bəzi məscidlər, kilsələr bərpa edilmişdir.

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"



Mayın 16-18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə İsmayıllı rayonunda "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Konfransın birinci günü Ulu Öndər Heydər Əliyevin İsmayıllı şəhərində ucaldılan abidəsi ziyarət olunub.

DQİDK və İsmayıllı Rayon İcra Hakimiyyətinin (RİH) rəhbər şəxsləri, Dövlət Komitəsinin Şamaxı və Şəki bölgələri üzrə şöbələrinin müdirləri, dini konfessiya, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbir ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə çıxış edən İsmayıllı RİH-in başçısı Nahid Bağırov Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. N.Bağırov bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda respublikamızda formalaşmış dövlət-din münasibətlərinin dünyaya nümunə olduğunu bildirən DQİDK-nın sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, ölkəmizdə vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dinlərə bərabərhüquqlu münasibət göstərilməkdədir. Sədr müavini deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda tolerantlıq və birgəyaşayış mühitinin nümunəvi modeli formalaşıb, respublikamız dünyada multikulturalizm mərkəzinə çevrilib. Dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında da məlumat verən Dövlət Komitəsinin sədr müavini deyib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində bütün dinlərin və millətlərin nümayəndələri Müzəffər Ali Baş Komandanın ətrafında birləşərək həmrəylik nümayiş etdirdi. Bəzi dairələr tərəfindən ölkəmizə qarşı dini zəmində təhdidlərin olduğunu diqqətə çatdıran sədr müavini ictimai-siyasi sabitliyin qorunması, eləcə də dini radikalizm və ekstremizmlə mübarizə sahəsində hər kəsi fəal olmağa çağırıb. Sədr müavininin sözlərinə görə, dinin siyasiləşdirilməsinin bir sıra komponentləri mövcuddur: "Bunlar milli-kimliyin dini kimliklə toqquşması və ya dini kimliyin milli kimliyi üstələməsi, dünyəvi dövlət prinsiplərinin zəiflədilməsi, ekstremist, radikal və məzhəbçi təbliğat və çağırışların edilməsi, siyasi fəaliyyətin və maraqların həyata keçirilməsində din və dindar amilindən istifadə olunması və s. bu kimi proseslərdən ibarətdir. Sözügedən amillər dövlətlərin iqtisadi, siyasi, hərbi təhlükəsizliyi ilə yanaşı, ideoloji-dini təhlükəsizlik məsələsini də aktuallaşdırır. Dinə yalnız etiqad, vicdan, milli-mənəvi-əxlaqi dəyərlər kimi deyil, həm də dövlətin milli, ictimai, ideoloji təhlükəsizlik məsələsi kimi yanaşmaq lazımdır. Əks təqdirdə, dövlət və cəmiyyət din sahəsində ciddi təhdidlərlə üzləşə bilər".

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mərəhmət Mustafayev çıxışında ölkə rəhbərliyi tərəfindən dinə və milli-mənəvi dəyərlərimizə daim diqqət və qayğının olduğunu vurğulayıb. O bildirib ki, dövlətimiz və Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dini ibadət yerlərinin tikilməsi və əsaslı bərpası bu diqqətin bariz nümunəsidir.

İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Lətifə Əliyeva isə çıxışında dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə diqqət çəkib. Eyni zamanda L.Əliyeva qeyd edib ki, xalqımız hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşadıb və inkişaf etdirib. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır.

Azərbaycan Bibliya Cəmiyyətinin sədri Rasim Xəlilov, İsmayıllı rayonu İvanovka kəndi "Molokan ruhani-xristian" dini icmasının sədri Sergey Kazakov çıxış edərək Azərbaycandakı dinlər və mədəniyyətlərarası harmoniyadan bəhs ediblər. Ölkəmizdə mövcud olan tolerantlığı bütün dünya üçün nümunə adlandırıblar.

Tədbirin sonunda "Molokanlar" adlı sənədli film nümayiş olunub.

Günün ikinci yarısında din xadimləri və dini icma sədrlərinin iştirakı ilə görüş keçirilib.

***



Konfransın DQİDK, İsmayıllı RİH, Gənclər və İdman İdarəsi, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin rəhbər şəxsləri, gənclər, eləcə də təhsil işçiləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan ikinci günündə açılış nitqi ilə İsmayıllı RİH başçısının müavini — İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Sevil Əhmədova çıxış edib. O, müxtəlif konfessiyalara xas olan ibadət yerlərinin təmir-tikintisinə dövlətin xüsusi diqqət göstərməsindən, hər il dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dini qurumlara maliyyə yardımı ayrılmasından bəhs edib. S.Əhmədova ölkəmizdə konfessiyalararası dayanıqlı tolerant münasibətlərin daha da inkişaf etdirilməsi və dini maarifləndirmə işinin genişləndirilməsi baxımından regionlarda keçirilən bu kimi tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov təqdimatla çıxış edərək, dinin tərbiyəvi tərəflərinin, Vətənə, ailəyə sevgi, böyüklərə hörmət, saflıq, dürüstlük kimi milli-mənəvi dəyərlərimizə uyğun əxlaqi prinsiplərin insanlara, xüsusilə gənc nəslə düzgün şəkildə çatdırılmasının önəmindən danışıb. Vurğulayıb ki, radikalizm, məzhəbçilik, xurafat, dini ayrı-seçkilik kimi mənfi hallara qarşı mübarizə məqsədilə əhalinin dini baxımdan maarifləndirilməsi istiqamətində tədbirlər paytaxtda və respublikamızın müxtəlif bölgələrində yerləşən təhsil ocaqları, hərbi hissələr, cəzaçəkmə və s. müəssisələrdə mütəmadi olaraq davam etdirilir. Dini müstəvidə baş verən proseslərə də toxunan sədr müavini Azərbaycan xalqının öz tarixinə, milli kimliyinə sadiq olduğunu, buna baxmayaraq, xaricdən yönəldilən mənfi təsirlərə, yad ideologiyalara, mövhumat elementlərindən təşkil olunmuş xarici dövlət-din münasibətləri modellərinin təbliğinə qarşı daim mübarizə aparmağın vacibliyini diqqətə çatdırıb. Komitə rəsmisi əlavə edib ki, Azərbaycanın istər Konstitusiyasında, istərsə də ictimai, mədəni, dini mühitində ayrı-seçkilik halları yoxdur. Hər hansı məzhəbi, dini xüsusiləşdirmək, ondan sui-istifadə etmək, xurafata, mövhumata imkan yaratmaq bizim xalq olaraq milli kimliyimizə və dəyərlərimizə ziddir.

Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Rövşən Əliyev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov ölkəmizdə hökm sürən tolerantlıq ənənələrindən bəhs edərək bildiriblər ki, Azərbaycanda etnik və dini baxımdan müxtəlifliyin olması insanlar arasında ayrı-seçkilik yaradan amil deyil, əksinə, xalqımıza məxsus multikulturalizm mühitinin əsasıdır.

Konfransın ikinci günü müzakirələrlə yekunlaşıb.

***

Regional konfrans mayın 18-də öz işini davam etdirib. Tədbirin yekun günündə Dövlət Komitəsi və Rayon İcra Hakimiyyətinin rəhbər vəzifəli şəxsləri, İsmayıllı



Rayon Ağsaqqallar Şurasının sədri, o cümlədən rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İsmayıllı RİH başçısının müavini Eyyub Musayev rayonda mövcud olan tolerantlıq mühiti barədə məlumat verərək ölkə rəhbərliyinin dini sahəyə qayğısının önəminə toxunub. Vurğulayıb ki, Azərbaycanda tarixən müxtəlif millətlərin nümayəndələri birgə yaşayıb, bir-birinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşıblar. Ölkəmizdə dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin fəaliyyəti Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Həyata keçirilən uğurlu siyasət nəticəsində müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayırlar.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini sahəyə dövlət qayğısından bəhs edərək, bu sahədə qarşıda duran hədəflərin uğurla yerinə yetirilməsində din xadimlərinin roluna diqqət çəkib. Vurğulayıb ki, məkrli qüvvələrin dindən alət kimi istifadə etməsi faktları gündən-günə artmaqdadır. Bu təhlükəli tendensiya hər bir ölkə üçün real təhdid mənbəyidir. Bu baxımdan yad dini ideologiyaların Azərbaycana ixracı cəhdlərinin qarşısının alınmasında din xadimlərinin, dini icma sədrlərinin aktiv fəaliyyəti xüsusi önəm daşıyır. Eyni zamanda dinlərarası dialoqun və əməkdaşlığın reallaşmasında, həmrəylik mühitinin qorunub-saxlanılmasında din xadimlərinin üzərinə daha böyük vəzifə və məsuliyyət düşür. Çünki din xadimləri onların arxasınca gedən insanların dini dünyagörüşünün formalaşmasına görə ən azı mənəvi məsuliyyət daşıyırlar.

Daha sonra İsmayıllı Rayon Ağsaqqallar Şurasının sədri Valeh Salehov çıxışında maarifləndirmə işinin davamlı və intensiv keçirilməsinin, icmaların bölgələrdə sosial-mədəni inkişaf prosesində daha yaxından iştirak etmələrinin zəruriliyini vurğulayıb.

Regional konfrans müzakirələrlə yekunlaşıb.

***

Üçgünlük regional konfrans çərçivəsində qeyri-islam dini icmaların nümayəndələri mədəniyyət müəssisələrini ziyarət ediblər.

Tədbir iştirakçıları əvvəlcə 200 ildən çox İsmayıllı rayonunun İvanovka kəndində kompakt şəkildə yaşayan molokan icmasının qonağı olublar. Görüş zamanı İsmayıllı rayonu İvanovka kəndi "Molokan-ruhani-xristian" dini icmasının üzvləri mədəniyyət və adətlərini, folklorlarını nümayiş etdiriblər, Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin diqqət və qayğısından danışıblar. Çıxış edənlər Azərbaycanda mövcud dini mühit, eləcə də zəngin mədəni irsin qorunub saxlanılmasını yüksək qiymətləndiriblər.

İştirakçılar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. İsmayıllı rayon Heydər Əliyev Mərkəzində Ulu Öndərimizin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, sənədlər, kitablarla tanış olublar.

Daha sonra İsmayıllı rayon Tarix Diyarşünaslıq muzeyi, "Azərxalça" ASC-nin İsmayıllı filialı və "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu ziyarət olunub.

Görüş və ziyarətlərdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası", "Azərbaycan Bibliya Cəmiyyəti", Bakı şəhəri "Molokan ruhani-xristian", Yevangelist Məsihi Baptistlərinin "Aqape", "Yevangelist Xristian Baptistlərinin kilsəsi", "Yeddinci Günün Adventistləri", "Xilaskar Yevangelik-Lüteranlar", "Həyatverici lütf", "Alov", "Vineyard", "Krişna Şüuru", "Bəhai", "Yeni apostol", "Şərqdə ulduz" və s. dini icmaların üzvləri iştirak ediblər.

# “N” SAYLI HƏRBİ HİSSƏDƏ “DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK” MÖVZUSU MÜZAKİRƏ OLUNUB

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində “Din və ideoloji təhlükəsizlik” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov iştirak edib.

Tədbiri giriş sözü ilə açan Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini S.Heydərov söyləyib ki, dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşır. Ölkəmizdə multikultural, tolerant mühitin formalaşmasında düşünülmüş dövlət siyasəti mühüm rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# MALAYZİYA TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNDİRİLİR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Azərbaycan İlahiyyat İnstitutunun (AİI) əməkdaşlarından ibarət nümayəndə heyəti 22-26 may 2023-cü il tarixlərində Malayziyaya işgüzar səfər edib.



Azərbaycanın Malayziyadakı Səfirliyinin və “İdrak” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nin sədr müavini Gündüz İsmayılov, AİI rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

Səfər çərçivəsində heyət ilk olaraq Malayziya Beynəlxalq İslam Universiteti nəzdində Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutuna ziyarət edib. İnstitutun Vəhy bilikləri və humanitar elmlər fakültəsinin dekanı, professor Əbdüləziz Berghout qonaqları burada görməkdən məmnun olduğunu diqqətə çatdırıb. Görüşdə ikitərəfli əlaqələrin genişləndirilməsi, birgə tədbirlərin həyata keçirilməsi barədə müzakirələr aparılıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə mövcud dövlət-din münasibətləri barədə söhbət açıb. Azərbaycanın zəngin multikulturalizm modeli təqdim etdiyini vurğulayan sədr müavini ölkəmizin bu sahədəki təcrübəsinin kifayət qədər olduğunu, kilsə, sinaqoq və məscidlərin azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərdiklərini nəzərə çatdırıb.

Daha sonra AİI rektoru Aqil Şirinov təmsil etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, hədəfləri haqqında geniş məlumat verib, həmçinin mövcud ixtisaslar barədə danışıb. Bildirib ki, İnstitut iki istiqamət üzrə – məscidlərdə imam və din xadimi kimi fəaliyyət göstərəcək İslam alimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq mütəxəssislər hazırlayır. AİI-nin xarici ölkə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu qeyd edən A.Şirinov vurğulayıb ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə ikitərəfli protokollar, memorandumlar imzalanıb.

Səfər çərçivəsində Malayziya İslam İncəsəti Muzeyi də ziyarət edilib.

***

Nümayəndə heyəti rəsmi səfər çərçivəsində Azərbaycanın Malayziyadakı Səfirliyini və Malayziya Milli Universitetini ziyarət edib. Malayziya Milli Universitetinin prorektoru, professor Van Kamal Bin Mujani təmsilçisi olduğu qurum haqqında məlumat verib. Həmçinin iki ali təhsil müəssisəsi arasında nəzərdə tutulan layihələr barədə söhbət açıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov Azərbaycanda mövcud olan dini durum haqqında məlumat verib, ölkəmizdəki tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, respublikamızda istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin mövcud olmadığını nəzərə çatdırıb.

AİI rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. İlahiyyat İnstitutunda hər üç təhsil pilləsi üzrə qəbulun həyata keçirildiyini qeyd edən rektor bildirib ki, ali təhsil müəssisəsinə qəbul tamamilə ödənişsizdir. AİI-də tədris aparan müəllimlər ərəb və ingilis dillərində sərbəst mühazirələr deyə bilən peşəkar kadrlardır.

Görüşdə, həmçinin ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

***

Səfər çərçivəsində nümayəndə heyəti Malayziya Beynəlxalq İslam Universitetində də (International Islamic University Malaysia) olub.

Malayziya Beynəlxalq İslam Universitetinin rektoru, professor Dzulkifli Abdul Razakla görüşdə dövlət-din münasibətləri, islamafobiya ilə mübarizə, ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

DQİDK-nin sədr müavini Gündüz İsmayılov təmsil etdiyi qurumun fəaliyyəti, Azərbaycanda mövcud dini durum, tolerant və multikultural mühit barədə məlumat verib. Ölkəmizin islamafobiya ilə mübarizə apardığını vurğulayan G.İsmayılov bu ilin mart ayında Azərbaycanda keçirilən “İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar” mövzusunda beynəlxalq konfransa diqqət çəkib.

AİI rektoru, dosent Aqil Şirinov təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. A.Şirinov rəhbəri olduğu İnstitutda iki istiqamət – “Dinşünaslıq” və “İslamşünaslıq” ixtisasları üzrə tədris həyata keçirildiyini diqqətə çatdırıb.

Nümayəndə heyəti daha sonra Malayziya Beynəlxalq İslam Universitetinin 40 illik fəaliyyətinə həsr olunmuş “dəyirmi masa”da iştirak edib. Həmçinin bu müəssisənin İslami nəqli (dini) biliklər və humanitar elmlər fakültəsini, ali təhsil ocağının kitabxanasında olub.

Nümayəndə heyəti, həmçinin 28 May Müstəqillik Günü ilə əlaqədar Azərbaycanın Malayziyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edib.

Səfər çərçivəsində Malayziya Qabaqcıl İslam Tədqiqatları üzrə Beynəlxalq İnstitutun sədri, prof. Maszlee bin Malik və Malayziya İslam Elmləri Universitetinin prorektoru, prof. Sharifudin Md Shaarani ilə də görüşən nümayəndə heyətinin Malayziyaya işgüzar səfəri sona çatıb.

# BRUNEY UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ YARADILIR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Azərbaycan İlahiyyat İnstitutunun (AİI) əməkdaşlarından ibarət nümayəndə heyəti Bruneyə işgüzar səfər edib.



Səfər çərçivəsində Bruney Darussalam Universitetinin (UBD) rektoru, dr. Hazri ibn Hacı Kifle və Sultan Şərif Əli adına İslam Universitetinin (UNISSA) prorektoru, dosent Siti Sara bint Hacı Ahmad ilə görüşlər keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov dövlət-din münasibətləri, mövcud dini durum haqqında məlumat verib, həmçinin ölkəmizdə islamofobiya ilə mübarizə aparıldığını, hər il bu istiqamətdə beynəlxalq tədbirlərin keçirildiyini qeyd edib. Sədr müavini respublikamızda tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını vurğulayıb.

AİI rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsinin yaranma səbəbi, fəaliyyəti, gələcək planları barədə geniş məlumat verib. Rektor ixtisaslar və təhsil pillələri haqqında bəhs edərkən bildirib ki, ali təhsil müəssisəsinə qəbul tamamilə ödənişsizdir.

Görüşlərdə ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

***

Səfər çərçivəsində Bruney Dini İşlər naziri Hacı Badaruddin ibn Pengarah Hacı Osman və Bruneyin Ali müftisi Abdul Aziz ibn Juned ilə də görüşlər keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərindən geniş bəhs edib. Təmsil etdiyi qurum haqqında məlumat verən sədr müavini bildirib ki, Komitə dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən orqandır. Ölkəmizdə bütün dinlərin nümayəndələrinin sülh şəraitində yaşadıqlarını, istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını qeyd edən G.İsmayılov deyib ki, Azərbaycandakı tolerant və multikultural mühit dünyaya nümunədir.

AİI rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsinin fəaliyyəti, mövcud təhsil pillələri, ixtisaslar, təqaüd proqramları, ödənişsiz təhsil imkanları, İnstitutun beynəlxalq əlaqələri, xarici universitetlərlə bağlanmış müqavilələr haqqında geniş məlumat verib.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini may ayı ərzində də davam etdirmişdir.*



Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 may** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay Rayon İcra Hakimiyyəti (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazılığının birgə təşkilatçılığı ilə şəhər "Mərkəz" məscidində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**2 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayon "Gənclər evi" sosial xidmət müəssisəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Rauf Hədisov adına Yeni Şərif kənd tam orta məktəbində "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri" mövzusunda;

**3 may** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə şəhər Ə.Cavad adına 2 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy RİH-in birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Yeni Azərbaycan Partiyası (YAP) Oğuz Rayon Təşkilatı, Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə rayonun peşə məktəbində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və QMİ-nin Lənkəran bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Heydər Əliyev irsi və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy RİH və Ombudsmanın Qərb Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqlarının intibahı" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən Rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Tolerant cəmiyyətdə söz və mətbuat azadlığının təminatı" mövzusunda;

**4 may** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Hacıqabul RİH, rayon Heydər Əliyev Mərkəzi, Uşaq və Ailələrə Dəstək Mərkəzi və GİI-nin birgə təşkilatçılığı ilə "Heydər Əliyev fenomeni" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz rayonu Qaraqurdlu kənd məscidi dini icmasının təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Naftalan ŞİH-in birgə təşkilatçılığı ilə Naftalan şəhər uşaq musiqi məktəbində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Qəbələ Regional İdarəsinin birgə təşkilatçılığı ilə İsmayıllı Rayon Heydər Əliyev Mərkəzində "Ümummilli Lider Heydər Əliyev mədəni irsimizin keşiyində" mövzusunda;

**5 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu Tasmalı kənd tam orta məktəbində "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri: Dövlətimizin din siyasəti - Azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhər 5 saylı tam orta məktəbində Ulu Öndərin 100 illik yubileyi ilə bağlı; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkilatçılığı ilə Ucar rayonu Təzə Şilyan tam orta məktəbində "Zərərli vərdişlərin fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon GİI və rayon Tibb Kollecinin birgə təşkilatçılığı ilə Saatlı rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Qəbələ rayon Hacıalılı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Vətənpərvərlik: milli-mənəvi dəyərlər kimi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Heydər Əliyev-milli sərvətimizdir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Aşağı Tala kəndi 5 №-li tam orta məktəbdə "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Kürdəmir rayonunda yerləşən N saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan Ordusunun qurulmasında Heydər Əliyev fenomeni" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**8 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayon GİI, Gənclərin İnkişaf və Karyera Mərkəzi, "Gənclər evi" sosial xidmət müəssisəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Balakən rayonu üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə Aslan Balayev adına İtitala kənd tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**10 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Dövlət Sərhəd Xidmətinin Lənkəran şəhərindəki "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə hərbi hissədə "Dinin siyasiləşdirilməsinin milli maraqlara və mənəvi dəyərlərə təsiri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, din xadimləri və dini icma sədrlərinin iştirakı ilə Sabirabad, Saatlı və İmişli rayonlarında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlər; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, rayon GİI və İmişli rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Tatarlı kənd tam orta məktəbində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

